RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 56 (8649) ŞƏNBƏ, 13 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir

### Prezident İlham Əliyev Daxili Qoşunların yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 12-də - Daxili Qoşunların yaranması günündə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakının Sabunçu rayonunda yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Nazir Vilayət Eyvazov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, hərbi hissədə şəxsi heyətin xidmət, məişət, sıra və döyüş hazırlığı səviyyəsinin yaxşılaşdırılması tədbirləri çərçivəsində qərargah və əsgər kazarması, yeməkxana, tibb, qarovul, texniki nəzarət, buraxılış məntəqələri, digər köməkçi binalar inşa olunub, idman şəhərciyi yaradılıb. Yeni binalar zəruri avadanlıq və inventarla təchiz edilib. Mövcud binalar isə əsaslı təmir olunub. Hərbi hissədə mərkəzləşdirilmiş havalandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb.

Prezident, Ali Baş Komandan hərbi hissədə yeni inşa edilən qərargah, əsgər yataqxanası, tibb məntəqəsi və yeməkxana ilə tanış oldu.

Diqqətə çatdırıldı ki, hərbi hissədə xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlar yaradılıb.

Qeyd edək ki, əsgər və zabitlərin xidmət şəraitinin yaxşılaşdırılması onların döyüş qabiliyyətini artırmaqla bərabər, istənilən vəzifənin icrasına birbaşa təsir göstərən amillərdəndir.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili Qoşunların xüsusi təyinatlıları üçün nəzərdə tutulan silah-sursata və kütləvi iğtişaşların dağıdılmasında istifadə olunan texnikaya və komendant postlarına baxdı. Bu postlar işğaldan azad olunmuş ərazilərdə xidmət aparmaq üçün hazırlanıb.

Qeyd edək ki, Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin qorunmasında və təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak edir. Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də Daxili Qoşunların xüsusi təyinatlıları vahid komandanlıq altında Azərbaycanın haqq işinin müdafiəsində fəal iştirak ediblər. Birinci Qarabağ müharibəsində Daxili Qoşunların 9 hərbçisi Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb.

Ardı 2-ci səh.



# Vətəndaş maraqlarının təminatçısı

### İlham Əliyevin geniş islahatlar proqramı sayəsində Azərbaycan dövləti ardıcıllıqla və sürətlə hədəflərinə çatır

**Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VII qurultayında toxunduğu məsələlərdən biri son illərdə respublikamızda həyata keçirilən islahatlar oldu. Məlum olduğu kimi, dövlət başçısının təşəbbüsləri ilə 2018-ci ildən başlanan yeni islahatlar kompleks xarakter daşıyaraq cəmiyyət həyatının müxtəlif sahələrini əhatə etdi.**

#### İslahatlara alternativ yoxdur

Azərbaycanın yüksəlişi və nail olduğu bütün inkişaf göstəriciləri islahatların labüdlüyünün və uğurlu nəticəsinin ən gözəl nümunələridir. Siyasi, sosial-iqtisadi, mədəni-humanitar sahələrdə əldə olunan nailiyyətlərin hər biri məhz sistemli və davamlı islahatların sayəsində mümkün olub. Elə respublikamızın nümunəsi göstərir ki, cəmiyyət həyatının istənilən sahəsində inkişafın, fəaliyyət dinamizminin və ahəngdarlığının təmin edilməsi yeni yanaşmaların tətbiqini, daha dəqiq ifadə etsək, zamanın nəbzini tutan islahatların həyata keçirilməsini tələb edir.

2018-ci ilin prezident seçkilərindən sonra Milli Məclisdə keçirilən andiçmə mərasimində İlham Əliyev yeni islahatların keçiriləcəyini bəyan etmişdi. Artıq həmin ilin ikinci yarısından başlayaraq islahatların dəqiqləşdirilməsi, müəyyən edilməsi və ardıcıllığı haqqında geniş işlər aparılmışdı. 2019-cu ildə bu islahatların tərkib hissəsi olan mühüm sosial paketlər qəbul olundu. Aydındır ki, insanın həyatını yaxşılaşdırmağa xidmət etməyən heç bir inkişaf öz məqsədinə, yüksək amallarına nail ola bilməz. 2019-cu ilin fevral və iyun aylarında müvafiq fərman və sərəncamlarla iki sosial paketin həyata keçirilməsi, ilk növbədə, onu göstərdi ki, dövlət başçısının fəaliyyətinin əsas qayəsini insan amili təşkil edir. Bütün bunlar onu təsdiq edir ki, İlham Əliyev vətəndaş maraqlarının müdafiəçisi və təminatçısıdır, insanların sosial rifahının yaxşılaşdırılması, həyat tərzinin və keyfiyyətlərinin dəyişdirilməsi onun həyata keçirdiyi siyasətin əsas məqsədlərindən biridir.

Dərin sosial islahatlara imkan verən əsas səbəblərdən biri isə iqtisadi sferada atılan addımlar idi. Reallıq ondan ibarətdir ki, aparılan şəffaflaşdırma siyasəti büdcə gəlirlərinin artmasına, maliyyə imkanlarımızın əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olub. Xüsusən vergi və gömrük sahələrində baş verən keyfiyyət dəyişiklikləri bu məsələdə böyük rol oynadı.

Ardı 4-cü səh.

## Qarabağda bərpa-quruculuq işlərində dost ölkələrin şirkətləri də çalışacaq

**Prezident İlham Əliyev Vətən müharibəsindən sonra müxtəlif tədbirlərdə dəfələrlə bəyan edib ki, işğaldan azad olunmuş ərazilərdə görüləcək bütün işlərdə dost ölkələrin şirkətləri də çalışacaq.**

Dövlət başçısı müharibənin artıq başa çatdığına görə əcnəbi investorların Azərbaycana daha fəal şəkildə sərmayə qoyacaqlarına əmin olduğunu bildirib.

İlk müqavilələr qardaş Türkiyənin şirkətləri ilə imzalanıb. Onlardan bəziləri artıq müxtəlif layihələrdə yer alıb. Məsələn, yeni Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun inşasının tərtib olunmuş qrafikə uyğun, qısa müddət ərzində yekunlaşdırılması üçün tikinti işlərinə yerli və xarici şirkətlərin cəlb edilməsi prosesi yekunlaşıb. Şuşa şəhərinə aparan bu avtomobil yolunun layihəsi şərti olaraq beş hissəyə bölünüb. Layihə boyu tikinti işlərini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi həyata keçirir. Bundan başqa, çətin relyefi olan ərazilərdə avtomobil yollarının inşasında zəngin təcrübəyə malik iki türk və bir yerli tikinti şirkəti də layihəyə cəlb edilib.

Qardaş ölkənin şirkətləri eyni zamanda Göygöl bölgəsindən Kəlbəcərə çəkilən yolda da işləyirlər. Ümumiyyətlə, Türkiyə şirkətlərinin işğaldan azad edilmiş ərazilərdəki fəaliyyəti üçün yeni imkanlar yaranır. Çünki onların inşaatda, infrastruktur işlərində və digər sahələrdə böyük səriştəsi var.

Ardı 5-ci səh.

## Laçın rayonu yaxın gələcəkdə ölkə iqtisadiyyatının inkişafına sanballı töhfə verəcək

**Uzun illər düşmən işğalında qalmış Laçın rayonunun da təbii ehtiyatları ermənilər tərəfindən talan olunmuşdur. Burada illərlə formalaşmış infrastruktur, o cümlədən əhalinin əsas məşğulluq sahəsi olan kənd təsərrüfatı dağıdılmış, rayonun zəngin meşə fondu məhv edilmişdir.**

İşğaldan azad olunan Laçının bərpası üçün hazırda müvafiq dövlət qurumları tərəfindən müxtəlif araşdırmalar aparılır. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin əməkdaşı Əbdülrəhim Dadaşov deyir ki, respublikamızın cənub-qərbində yerləşən, relyefi dağlar və dağlıq yaylalardan ibarət olan Laçının işğaldan əvvəl 72 min hektar yaylaq və 34 min hektar zəngin meşə sahəsi var idi. Qışı quraq keçən, mülayim isti və soyuq iqlimi olan Laçında örüş-otlaq və biçənək sahələrinin geniş və əhalinin maldarlıq sahəsində zəngin təcrübəsi olduğu üçün daha çox heyvandarlıq inkişaf etmişdi. Rayonda mövcud olan otlaqlar respublikanın otlaq sahələrinin təqribən 3,1 faizini təşkil edirdi. İqliminin və bol sulu çaylarının verdiyi imkanlar hesabına rayon sakinləri həm birillik, həm də çoxillik əkinləri rahat becərə bilirdilər.



İşğaldan öncəki 1980-1988-ci illər ərzində rayonda taxıl istehsalı respublika üzrə istehsalın 0,2 faizini təşkil edirdi. Bu sahə üzrə yeni islahatların və innovativ texnologiyaların tətbiqi ilə gələcəkdə də yüksək nəticələr əldə etməyin mümkünlüyünü qeyd etmək olar. Tədqiqatlar nəticəsində söyləmək olar ki, 2025-ci ilə qədər Laçında taxıl istehsalının 5,3 min tona qədər artırılması gözlənilir.

Ardı 5-ci səh.




## Vaksinasiya virusa qarşı kütləvi immunitetin qazanılmasını təmin edəcək

**Bir il əvvəl pandemiyaya çevrilən koronavirus infeksiyası yayılmaqda davam edir. Bu müddət ərzində ölkələrdə həyata keçirilən sərt karantin rejimləri sayəsində COVID-19-un yayılmasında müəyyən azalmalar hiss olunsa da, yumşalmalar zamanı virus yenidən sürətlə yayılmağa başlayıb.**

Hazırda da dünya üzrə vəziyyət ürəkaçan deyil və gündəlik olaraq yüz minlərlə insan koronavirusa yoluxur. Ümumdünya Səhiyyə Təşkilatının son statistikasına əsasən, Yer üzündə bu təhlükəli infeksiyaya yoluxanların ümumi sayı 119 milyonu ötüb, 2 milyon yarımdan çox insan həyatını itirib.

Hazırda əksər ölkələrdə COVID bəlasına qarşı ən effektiv üsul olan vaksinasiya prosesi aparılır. ÜST-ün mütəxəssisləri bildirirlər ki, vaksinlər artıq insan həyatını xilas edir.

Ardı 6-cı səh.

## Ermənistanda ikihakimiyyətlilik formalaşıb

### Baş nazir-prezident qarşıdurması ölkədə yeni siyasi xaosu daha da gücləndirib

Ermənistanda siyasi çəkişmə hər gün böyüyür. Baş nazir-prezident qarşıdurması siyasi böhranı daha da dərinləşdirir. Prezident Armen Sarkisyanın Artak Davtyanın silahlı qüvvələrin baş qərargah rəisi vəzifəsinə təyin edilməsi haqqında baş nazir Nikol Paşinyanın vəsatətini iki dəfə geri qaytarması da bunu təsdiqləyir.

Baş nazir-prezident qarşıdurmasından yararlanmağa çalışan müxalif qüvvələr isə mövcud vəziyyətdən maksimal dərəcədə faydalanmağa, iqtidar əleyhinə aparılan təbliğatı gücləndirməyə cəhd göstərirlər. Lakin görünən odur ki, baş nazirin əleyhinə təşkil edilən mitinqlərin iştirakçıları hər ötən gün daha da seyrəlir. Son aksiyalarda müxalifətin baş nazirlə əsas mübarizə poliqonuna çevrilən Yerevanın Baqramyan küçəsinə toplaşanların sayının 2-3 mini keçmədiyi bildirilir.

"Vətənin qurtuluşu hərəkatı"nın təşkil etdiyi aksiyalarda qeyd olunur ki, baş nazirin istefasından sonra erkən parlament seçkilərinin keçirilməsindən əvvəl müvəqqəti hökumət qurulmalıdır.

Paşinyan siyasi baxımdan mövqelərini qorusa da, iqtisadi sferadakı çətinliklər ona qarşı çıxanların sayını artırır. Ermənistan mətbuatı yazır ki, hakimiyyət ölkə iqtisadiyyatında, guya, dirçəliş baş verməsi, işsizliyin getdikcə azalması, əhalinin sosial vəziyyətinin yaxşılaşması haqqında ağızdolusu danışsa da, faktlar tamamilə bunun əksini deyir. Hətta iş o yerə gəlib çatıb ki, erməni lobbisinin vəsaiti hesabına Parisdə nəşr olunan "Ermənistan xəbərləri" jurnalı da ölkədə mövcud həqiqətlərin tamam fərqli olduğunu bildirir. Qeyd olunur ki, Ermənistanda rəsmən gənclərin 60 faizdən çoxu işsizdir. Ölkə rəhbərliyinin işsizliyin azaldığı barədə pafoslu məlumatına baxmayaraq, əslində, bu sahədə acınacaqlı vəziyyət mövcuddur, işsizlik azalmaq əvəzinə getdikcə artmaqdadır.

Ardı 6-cı səh.



# Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir

## Prezident İlham Əliyev Daxili Qoşunların yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib










*Əvvəli 1-ci səh.*

44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb, 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Prezident, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasına, xidməti vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuların mükafatlandırılmasına xüsusi diqqət yetirir. Azərbaycan Prezidentinin 2021-ci il 12 mart tarixli Sərəncamına əsasən, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının iki hərbi qulluqçusunun "Vətən uğrunda", üç nəfərin "İgidliyə görə", 7 nəfərin isə "Hərbi xidmətlərə görə" medallarla təltif olunması bunun əyani göstəricisidir.

Xatırladaq ki, Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biri kimi, Daxili Qoşunlar şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar qəsdlərdən qorumağa, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsini həyata keçirməyə, ictimai asayişin mühafizəsinin, ictimai təhlükəsizliyin təmin olunmasını, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə qadirdir və hazırdır.

Hərbi hissə ilə tanışlıqdan sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının bütün şəxsi heyətini təbrik etdi.

# Milli Məclisin Gənclər və idman komitəsində görüş keçirilib

Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev martın 11-də Vətən müharibəsinin bir qrup iştirakçısı, ölkəmizi beynəlxalq yarışlarda təmsil edən idmançılar və bir neçə fəal gənclə görüşüb.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Adil Əliyev ölkəmizdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətindən, bədən tərbiyəsi və idmanın inkişafından, idmançılarımızın beynəlxalq yarışlarda, olimpiadalarda qazandığı uğurlardan danışıb. Bildirib ki, dünyanın diqqət mərkəzində olan "Formula-1" kimi yarışların ölkəmizdə yüksək səviyyədə təşkil edilməsinin əhəmiyyəti böyükdür. Bədən tərbiyəsi və idmanın gənc nəslin həyatındakı rolundan danışan vitse-spiker Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad edən rəşadətli ordumuzun fiziki hazırlığı, maddi-texniki bazası, keçirilən təlimlərin nəticəsi barədə fikirlərini bölüşüb. Bildirib ki, ölkəmizin qazandığı tarixi Qələbədə istifadə edilən taktiki gedişlər dünyanın hərbi mütəxəssislərinin marağına səbəb olub.

Görüşdə gənclərin idmana həvəsinin artırılması, onların vətənpərvərlik ruhunda yetişdirilməsi və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Sonda Vətən müharibəsində xidmətlər göstərmiş bir qrup şəxsə və ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil edən idmançılara Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim edilib.

# Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlərin yüksək səviyyəsi məmnunluq doğurur

## Roma Papası Fransisk Həzrətlərinə

Zati-müqəddəsləri!

Tacqoyma gününüz münasibətilə Sizi və Sizin simanızda bütün həmməzhəblərinizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Bu gün Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlərin yüksək səviyyəsi məmnunluq doğurur. Tolerantlıq və multikultural dəyərləri həyat tərzi kimi qəbul edən Azərbaycan mədəniyyətlər və dinlər arasında dialoqun təşviqinə yönəlmiş bu əlaqələrin daha da genişlənməsinə xüsusi əhəmiyyət verir.

Keçən il Vatikanda Sizinlə görüşümüzü, apardığımız fikir mübadiləsini ən gözəl təəssüratlarla xatırlayır, Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə verdiyiniz yüksək qiymətə görə təşəkkürümü bildirirəm.

Dünyanı bürümüş COVID-19 virusu ilə mübarizə apardığımız bu mürəkkəb dövrdə bəşəriyyət tərəfindən qarşılıqlı anlaşma, dəstək, həmrəylik və humanizm kimi ülvi dəyərlərin səfərbər edilməsi vacibdir. İnanıram ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında mövcud olan nümunəvi əməkdaşlıq münasibətləri bundan sonra da sivilizasiyalar arasında qarşılıqlı etimad mühitinin yaradılmasına, dini və mədəni irsin qorunmasına, ümumbəşəri dəyərlərin təntənəsinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ali mənəvi missiyanızda müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2021-ci il*

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Abbasov Vurqun Arif oğlu - polkovnik
Cəbrayılov Rövşən Ata oğlu - polkovnik

**"İgidliyə görə" medalı ilə**

Məmmədov İlqar Aydın oğlu - general-mayor
İsmayılov Alim Şükür oğlu - polkovnik
Məmmədov Sahib Kamaləddin oğlu - polkovnik

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Babayev Eldar Muxtar oğlu - polkovnik-leytenant
İsmayılov Eyvaz Əvəz oğlu - polkovnik-leytenant
Məhərrəmov Zaur Barat oğlu - polkovnik-leytenant
Məmmədov Vüqar Təhməz oğlu - polkovnik-leytenant
Ələkbərov Rəşad Rafiq oğlu - mayor
Tağıyev Arzuman Nadir oğlu - kapitan
Qurbanov Elçin Yaşar oğlu - baş leytenant.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050, № 12, maddə 1939; 2020, № 5, maddə 551) ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2-ci bənd ləğv edilsin.
2. 3.11-ci bəndin ikinci cümləsində "3.2-ci və 3.8-ci bəndlərində" sözləri "3.8-ci bəndində" sözləri ilə əvəz edilsin.
3. 3.17-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.17. Təqvim ili ərzində büdcədən ayrılan və fermerə verilməyən subsidiya məbləği büdcəyə qaytarılır. Fermerə verilən subsidiya vəsaiti 2 (iki) il ərzində istifadə edilmədikdə, bu barədə ona SMS və elektron poçt vasitəsilə bildiriş göndərilir. Bildiriş göndərildikdən sonra fermer 3 (üç) ay ərzində subsidiya vəsaitini istifadə etmədikdə, növbəti il üçün ona subsidiya ödənilmir.".

4. 5.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.1. Subsidiya mexanizminin səmərəli fəaliyyətinin təmin edilməsi məqsədilə subsidiya alınması üçün müraciət daxil olduqda və ya əldə edilmə mənbəyi bəlli olan hər hansı məlumat əsasında fermerin bəyannaməsində göstəriləndən fərqli hallar aşkar edildikdə, Agentlik tərəfindən aşağıdakı ardıcıllıqla monitorinqlər aparılır:".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2021-ci il*

# Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsinə sovqat təqdim olunub

Naxçıvan Muxtar Respublikasında bayram günləri ərəfəsində hərbi hissələrə sovqat aparılması ənənəsi xalq-ordu birliyinin təcəssümüdür. Ənənəyə uyğun olaraq Novruz bayramı ərəfəsində Naxçıvan əhalisi, müxtəlif dövlət qurumları, müəssisə və təşkilatlar, ayrı-ayrı sahibkarlıq subyektləri hərbi hissələrə baş çəkir, əsgərlərə sovqat aparırlar.

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, xalq-ordu birliyini daha da möhkəmləndirən və şəxsi heyətdə ruh yüksəkliyi yaradan tədbirlərin davamı olaraq "Sumqala Tikinti Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbəri Kazım Mehdiyev tərəfindən Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsinə 1000 kiloqram üzüm qurusu təqdim edilib.

Adıçəkilən müəssisənin Nehrəm üzümçülük təsərrüfatında yetişdirilmiş məhsulları hərbi hissənin anbarlarına təhvil verilib.

# Daxili Qoşunların yaranmasının 29-cu ildönümünə həsr olunmuş tədbir keçirilib

**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun sədrliyi ilə martın 12-də Daxili Qoşunların yaranmasının 29-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbiri açan nazir Vilayət Eyvazov Daxili Qoşunların yaranmasının növbəti ildönümü münasibətilə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, dövlət başçısının səmimi təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdırıb. O, çıxışında təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu ənənələrinin bu gün də uğurla davam və inkişaf etdirildiyini, ali diqqət və qayğı, eyni zamanda ciddi nəzarət, tələbkarlıq sayəsində Daxili Qoşunların yüksək peşəkarlığa, döyüş və fiziki hazırlığına malik mobil quruma çevrildiyini məmnunluqla vurğulayıb.

Sonra nazir müavini, Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov məruzə ilə çıxış edib.

General-polkovnik Vilayət Eyvazov çıxışında dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsində Daxili Qoşunların hərbi qulluqçularının da iştirak edərək mərdlik, qəhrəmanlıq, vətənpərvərlik nümunələri göstərdiyini bildirib. Nazir düşmənlə ağır döyüşlərdə Daxili Qoşunların 66 hərbçisinin şəhid olduğunu, 346 nəfərin isə yaralandığını qeyd edib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev tərəfindən Daxili Qoşunların Vətən müharibəsində döyüş tapşırıqlarını yerinə yetirən 1377 hərbçisi yüksək dövlət təltiflərinə, o cümlədən 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Daxili işlər naziri xidmətdə fərqlənən hərbi qulluqçuların peşə bayramı ərəfəsində də dövlət mükafatlarına layiq görülməsinin Prezidentin Daxili Qoşunların şəxsi heyətinin əməyinə verdiyi ali dəyərin və yüksək etimadının əyani ifadəsi olduğunu diqqətə çatdırıb.

Eyni zamanda daxili işlər naziri Vilayət Eyvazov Daxili Qoşunların qarşıda duran başlıca vəzifələrini qeyd edərək tapşırıq və tövsiyələrini verib. O, Daxili Qoşunların hərbi qulluqçularının bundan sonra da vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcəklərinə, asayişin və daxili təhlükəsizliyin keşiyində əzm və qətiyyətlə dayanacaqlarına əminliyini bildirib.

Tədbirdə Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev iştirak edib.

Sonda tədbir iştirakçıları Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul ediblər.

# Avropa şirkətləri Azərbaycanda fəaliyyətini davam etdirmək niyyətindədir

**"Aİ Biznes Mühiti Hesabatı 2020" 5-ci nəşrinin təqdimatı keçirilib. Onlayn formatda təşkil olunan tədbirdə Azərbaycanın rəsmi şəxsləri, beynəlxalq təşkilatların nümayəndələri və sahibkarlar iştirak ediblər.**



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov ölkəmizin Avropa İttifaqı (Aİ) ilə əlaqələrə xüsusi önəm verdiyini diqqətə çatdırıb, Azərbaycan iqtisadiyyatının genişlənməsinə və şaxələndirilməsinə yönəlmiş sistemli tədbirlərin həyata keçirilməsində beynəlxalq təcrübənin tətbiqi baxımından Aİ-nin ölkəmizdəki nümayəndəliyi ilə əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Nazir tərəflər arasında münasibətlərin artan dinamikasında qarşılıqlı səfərlərin, yüksəksəviyyəli görüşlərin mühüm əhəmiyyətini qeyd edib.

Bildirilib ki, Aİ Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. 2020-ci ildə ticarət dövriyyəsi 9,33 milyard ABŞ dolları təşkil edib. Son 8 ildə Aİ ölkələrinin Azərbaycana yatırdığı investisiyaların ümumi həcmi 20 milyard dollardan çoxdur.

COVID-19 pandemiyasının Azərbaycan iqtisadiyyatına təsirindən bəhs edən nazir bu təsirlərin minimallaşdırılması istiqamətində həyata keçirilən sosial-iqtisadi və maliyyə dəstəyi tədbirləri, həmçinin iqtisadiyyatın liberallaşdırılması istiqamətində görülən işlər, əlverişli biznes və investisiya mühiti, birbaşa xarici investisiyaların təşviqinə dair strategiya və sair barədə məlumat verib.

M.Cabbarov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun Qələbəsini vurğulayaraq işğaldan azad olunmuş torpaqlarımızda yeni infrastruktur və tikinti layihələrinin həyata keçirilməsinin əsas vəzifələrdən olduğunu, investisiya qoyuluşu üçün geniş imkanlar yaradılacağını bildirib, təşkilata üzv olan ölkələri reallaşdırılacaq layihələrdə əməkdaşlığa dəvət edib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas Azərbaycan ilə Aİ arasında əlaqələrdən danışıb, tərəfdaşlığın genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

İclasda həmçinin "Azərbaycan 2020: Aİ biznes mühiti" hesabatının təqdimatı keçirilib, ekspertlərin rəyləri dinlənilib. Hesabata əsasən, Azərbaycanda təmsil olunan Aİ ölkələri şirkətlərinin 80 faizdən çoxu iqtisadi fəaliyyət üçün yenidən ölkəmizi seçmək niyyətini bildirib. Bununla yanaşı, Avropa şirkətlərinin 75 faizi pandemiyanın təsirlərinin minimallaşdırılması üçün həyata keçirilən dövlət dəstəyi tədbirlərindən tam razı qaldıqlarını ifadə edib. Avropa şirkətləri həmçinin Azərbaycanın işğaldan azad olunmuş əraziləri üzərində hökumət nəzarətinin bərpa edilməsinin həm əhali, həm də ölkə iqtisadiyyatı üçün əhəmiyyətini vurğulayıb.

Sonda iqtisadi əlaqələrin genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi imkanları barədə müzakirələr aparılıb və suallar cavablandırılıb.

# Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının perspektivləri barədə fikir mübadiləsi aparılıb

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar ilə görüşü keçirilib.**



Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Görüşdə nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari vəziyyət, 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, o cümlədən Ermənistan tərəfinin Azərbaycanın ərazilərinə hərbçilərini göndərmək cəhdləri, gündəlik əsasda insanların həyatı üçün birbaşa təhlükə təşkil edən mina xəritələrinin Azərbaycana verilməsindən imtina edilməsi kimi məsələlər barədə qarşı tərəfə məlumat verib. Nazir həmçinin bölgədə həyata keçirilən quruculuq və bərpa prosesləri, bu xüsusda Aİ-nin mümkün rolundan danışıb.

Xüsusi nümayəndə Toivo Klaar bölgədə sülhün qazanılması üçün birgə çalışmağın vacibliyini qeyd edib. Aİ-nin bölgədə sülh, təhlükəsizlik və tərəqqinin əldə olunması prosesini dəstəkləməyə hazır olduğunu vurğulayıb.

Tərəflər eyni zamanda Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

# Azərbaycanın müdafiə naziri Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb

**Martın 12-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə əks-həmlə əməliyyatı ilə başlayan Vətən müharibəsinin Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatdığını və torpaqlarımızın işğaldan azad edildiyini vurğulayıb. Azərbaycan Ordusu tərəfindən keçirilmiş uğurlu hərbi əməliyyatlar haqqında qonağa məlumat verən nazir qeyd edib ki, 44 gün davam edən müharibədə ordumuzun qazandığı döyüş təcrübəsi bir çox dünya ölkələrinin orduları və beynəlxalq hərbi ekspertlər tərəfindən öyrənilir.

Müharibə zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə, Bərdə, Tərtər və digər yaşayış məntəqələrini müntəzəm atəşə tutmasını, məqsədyönlü şəkildə dinc əhalini qətlə yetirməsini ciddi pisləyən general-polkovnik Zakir Həsənov beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə layiqli qiymət verilməsinin və həmin hadisələri törədənlərə qarşı müvafiq tədbirlərin görülməsinin vacibliyini vurğulayıb.

Azərbaycanın torpaqlarını işğaldan azad edərək 30 ilə yaxın davam edən Dağlıq Qarabağ münaqişəsini həll etməsinin Cənubi Qafqaz regionunda sabitliyin təmin olunmasına töhfə verəcəyini diqqətə çatdıran nazir Azərbaycan Ordusu tərəfindən azad edilmiş ərazilərdə postmüharibə dövründə keçirilən tədbirlər haqqında da qonağı məlumatlandırıb.

Toivo Klaar Ermənistan ilə Azərbaycan arasında baş verən bütün silahlı toqquşmaları, xüsusilə də keçən ilin payızında baş vermiş müharibəni diqqətlə izlədiyini qeyd edərək, Cənubi Qafqaz regionunda sabitliyin qorunmasının vacibliyini vurğulayıb. O, həmçinin bildirib ki, Avropa İttifaqı bu istiqamətdə atılan bütün addımları dəstəkləyir.

Vətən müharibəsində şəhid olan hərbi qulluqçuların və mülki şəxslərin ailələrinə başsağlığı verən qonaq Azərbaycan Ordusunun bu müharibədə əhəmiyyətli təcrübə qazandığını deyib.

Görüşdə həmçinin bölgədə yaranmış yeni vəziyyət, postmüharibə şəraiti və bir sıra digər məsələlər müzakirə olunub.

# Ceyhun Bayramovun BMT Baş katibinə ünvanladığı məktub qurumun Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Ermənistan tərəfinin beynəlxalq hüquqa və 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq öz hərbçilərini Azərbaycanın beynəlxalq tanınmış ərazilərində yerləşdirmək cəhdləri ilə bağlı BMT Baş katibinə 2021-ci il 1 mart tarixində ünvanladığı məktubu BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Məktubunda nazir Ceyhun Bayramov Ermənistan tərəfinin bölgədə qeyri-sabitliyə xidmət edən addımlarına Baş katibin diqqətini cəlb edərək, bu xüsusda Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin gizli şəkildə "Laçın dəhlizi" vasitəsilə və buradakı Rusiya sülhməramlılarının nəzarət prosedurlarından yayınmaq məqsədilə mülki geyimdə və mülki nəqliyyat vasitələrində Azərbaycan ərazilərinə göndərilməsi barədə məlumatı çatdırır. Bu faktın Ermənistanda hərbçilərin ailələrinin etirazına səbəb olduğu və müstəqil media tərəfindən qeydə alındığı bildirilir.

Nazir Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərində yerləşdirilməsinin Ermənistanın beynəlxalq öhdəliklərinin, xüsusilə də dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət və riayət etmək öhdəliyinin kobud şəkildə pozulması halı olduğunu vurğulayır.

Xatırlatmaq istərdik ki, bir müddət öncə nazir Ceyhun Bayramovun Ermənistanın üçtərəfli Bəyanata zidd olaraq sabitliyin pozulmasına yönələn fəaliyyəti, o cümlədən terrorçu-sabotaj qrupunun Azərbaycan ərazilərinə göndərilməsi, habelə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin mina və digər partlayıcı sursatlar ilə kütləvi çirklənməsi və Ermənistanın minalanmış ərazilər ilə bağlı müvafiq məlumatı verməkdən imtina etməsinə dair BMT Baş katibinə məktubları Baş Assambleya və Təhlükəsizlik Şurasının sənədləri kimi dərc olunub.

# Əlilliyi olan qadınlar və Qarabağ müharibəsi veteranları ilə bağlı birgə layihə yeni dəstək istiqamətləri əlavə edilməklə genişləndirilir

**Azərbaycan hökuməti, BMT-nin İnkişaf Proqramı və BMT-nin Əhali Fondunun birgə icra etdiyi əlilliyi olan qadınların və Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin edilməsində hökumətin səylərinə dəstək məqsədi daşıyan layihənin Rəhbər Komitəsinin iclası olub.**



İclasda əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Birinci vitse-prezidentin Katibliyinin nümayəndəsi Fərqan Abbaszadə, BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakassetti, BMT-nin Əhali Fondunun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Fərid Babayev, layihə heyəti və b. iştirak ediblər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, Prezident İlham Əliyevin əlilliyi olan şəxslərə, müharibə iştirakçılarına göstərdiyi xüsusi qayğını qeyd edən S.Babayev bu istiqamətdə reallaşdırılan tədbirləri diqqətə çatdırıb. Nazir Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan, Azərbaycan hökuməti, BMT-nin İnkişaf Proqramı və BMT-nin Əhali Fondunun birgə icra etdiyi layihənin də bu sahədə aparılan işlərə dəstək məqsədi daşıdığını deyib. O, 2019-cu ilin fevralından başlayan layihənin komponentləri üzrə hədəf qruplarının məşğulluq və özünüməşğulluq, əmək bazarına çıxış imkanlarına yiyələnmələri üçün aparılan işlərin önəmini diqqətə çatdırıb. Hədəf qruplarına biznes-planın hazırlanması, biznes ideyalarını reallaşdırmaq, bacarıqlarını artırmaq və s. üçün təşkil olunan təlimlərin, həmçinin biznes ideyalarını həyata keçirmələri üçün aktivlərlə təchizat işlərinin önəmini qeyd edib.

S.Babayev layihə çərçivəsində İnklüziv İncəsənət Məktəbinin yaradılmasının əhəmiyyətindən bəhs edib. Məktəbdə əlilliyi olan tələbələrə rəsm, toxuculuq, oymaçılıq və s. istiqamətlər üzrə təlim kurslarının təşkil edildiyini, burada hazırlanmış məhsulların satış sərgisinin də təşkil edildiyini diqqətə çatdırıb. İnklüziv İncəsənət Məktəbində hazırlanan məhsulların yeni yaradılacaq Binəqədi DOST Mərkəzində də nümayişi və satış-sərgisinin təşkil olunacağını bildirib.

İclasda ikiillik layihənin komponentləri üzrə aparılan işlər, layihəyə yeni dəstək istiqamətlərinin əlavə olunması və yeni komponentlər üzrə Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Tərtər rayonlarında fəaliyyətlərin icra edilməsi, layihənin müddətinin bu ilin sonunadək uzadılması və s. məsələlər müzakirə olunub.

# Əlahiddə Ümumqoşun Ordunun tankçıları məşğələlərdə peşəkarlıq nümayiş etdirirlər

**Əlahiddə Ümumqoşun Ordunun tankçıları gecə və gündüz şəraitində keçirilən məşğələlərdə peşəkarlıq nümayiş etdirirlər.**

Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tank birləşmələrində keçirilən məşğələlərdə əsas diqqət şəxsi heyətin çətin relyefli ərazilərdə zirehli tank texnikalarını idarə edərək döyüş meydanında hədəfləri məhv etmək vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

Təlim mərkəzlərində sürücülük və atəş bacarıqları yoxlanılan heyətlər zirehli texnikanın ərazidə təbii və süni maneələri dəf etməklə sürülməsini icra edir, müxtəlif manevrlər və atışlar həyata keçirirlər.

Plana uyğun olaraq gecə vaxtı çətin relyef və məhdudgörmə şəraitində təşkil olunan məşğələlərdə ekipajların müasir tank texnikaları ilə minalı sahələrdən, süni və təbii maneələrdən keçməklə atəş tapşırıqlarını yerinə yetirmələri praktiki məşq etdirilir.

# Qarabağ Dirçəliş Fondunun və Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbərləri əməkdaşlıq perspektivlərini müzakirə ediblər

**Qarabağ Dirçəliş Fondu və Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması işğaldan azad olunmuş ərazilərin bərpasına töhfə vermək məqsədilə birgə əməkdaşlıqda maraqlıdırlar.**



Qarabağ Dirçəliş Fondundan AZƏRTAC-a bildiriblər ki, bu maraq Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, Milli Məclisin deputatı Tural Gəncəliyevin və Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyevin görüşündə ifadə edilib.

Görüşdə icmanın rəhbəri və nümayəndələri təşkilatın son illərdə həyata keçirdiyi müxtəlif layihələrdən bəhs ediblər. Bu layihələr arasında erməni işğalının nəticələri ilə bağlı reallıqların dünya ictimaiyyətinin diqqətinə çatdırılması, habelə Qarabağın tarixinin yerli və xarici auditoriya arasında populyarizasiyası kimi təşəbbüslər də az deyil.

Tural Gəncəliyev Xankəndidən olan seçicilərin vəziyyəti, postmüharibə dövründə icmanın gözləntiləri və tezliklə doğma torpaqlara qayıtmaq arzusu barədə də danışıb. İcma rəhbərinin sözlərinə görə, Azərbaycan diasporunun nümayəndələri də icma və Qarabağ Dirçəliş Fondu ilə birlikdə layihələrdə iştirak etməyə hazır olduqlarını bildirirlər. "Biz də öz tərəfimizdən bu əməkdaşlığa dəstək verməyə çalışacağıq", - deyə o bildirib.

Fondun sədri Rəhman Hacıyev isə görüş iştirakçılarına təşkilatın müvafiq strukturlarının yaradılması istiqamətində görülən işlərdən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fondun qarşısında qoyduğu məqsəd və vəzifələrdən danışıb. "Fondun qarşısında duran əsas vəzifələrdən biri Qarabağın dirçəldilməsi üzrə müvafiq layihələrə yönəldiləcək ianələrin və qrantların cəlb olunmasıdır", - deyə o bildirib. Onun sözlərinə görə, ən yaxın vaxtlarda fondun strateji və fəaliyyət planları işlənib hazırlanacaq.

Rəhman Hacıyev bildirib ki, fond öz fəaliyyəti çərçivəsində müxtəlif layihələr, o cümlədən Qarabağın maddi dəyərlərinin bərpasına, sərmayələrin cəlb olunmasına və insan kapitalının inkişafına yönəldilmiş layihələr həyata keçirəcək. "Dövlət başçısı öz çıxışlarında insan kapitalının inkişafının xüsusi əhəmiyyətini dəfələrlə vurğulayıb. Azərbaycan Prezidentinin bəyanatlarını tapşırıq kimi qiymətləndirən fond bu istiqamətə xüsusi diqqət yetirəcək. Çünki hər hansı təşəbbüsün, xüsusilə də işğaldan azad edilmiş torpaqların bərpası və reinteqrasiyası kimi möhtəşəm bir təşəbbüsün uğurunu məhz insanlar müəyyənləşdirirlər", - deyə R.Hacıyev bildirib. Fondun sədri qurumun vəzifələri arasında Azərbaycan Respublikasının Qarabağ bölgəsinə investisiyaların cəlb edilməsi prosesinin təşviqini, dövlət-özəl sektor tərəfdaşlığının inkişaf etdirilməsini, habelə yerli və beynəlxalq ictimaiyyət arasında Qarabağın tarixi, erməni işğalı nəticəsində dəymiş zərərlə bağlı reallıqları və bu regionun bərpası prosesi haqqında məlumatların yayılmasını sadalayıb.

Görüş zamanı dövlət başçısının tapşırığına əsasən, Qarabağda həyata keçirilən bütün layihələrin dünyanın ən yüksək standartlarına uyğun olacağı qeyd edilib. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ölkənin işğaldan azad edilmiş ərazilərinin "yaşıl enerji" zonasına, "ağıllı" şəhər və "ağıllı" kənd kimi mütərəqqi konsepsiyaların həyata keçirilməsi üçün platformaya çevriləcəyi ilə bağlı sözləri nümunə kimi göstərilib.

Görüş iştirakçıları işgüzar ünsiyyətin davam etdirilməsi və bu cür görüşlərin müntəzəm olaraq keçirilməsi barədə razılığa gəliblər.

# Dünənin, bu günün və sabahın partiyası



## Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının iclası keçirilib



**Martın 12-də Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Təftiş Komissiyasının üzvlərini bu məsuliyyətli vəzifəyə seçilmələri münasibətilə təbrik edib. YAP Mərkəzi Aparatının rəhbəri partiyanın Təftiş Komissiyasının qarşıda duran vəzifələri uğurla yerinə yetirəcəyinə əminliyini ifadə edib.

YAP-ın VII qurultayının ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə və yeni mərhələnin başlanğıcı olduğunu deyən Tahir Budaqov partiyanın sədri, Prezident İlham Əliyevin qurultayda dərin məzmunlu, proqram xarakterli çıxışının partiyanın fəaliyyətində əsas istiqamət olduğunu nəzərə çatdırıb. Tahir Budaqov həmçinin partiyanın sədri İlham Əliyevin tövsiyələrini Təftiş Komissiyasının üzvlərinin diqqətinə çatdırıb. O, komissiyanın üzvlərinə fəaliyyətlərində uğurlar arzulayıb.

Milli Məclisin deputatları Sevinc Hüseynova, Sadiq Qurbanov və Nizami Səfərov iclasda çıxış edərək yüksək etimad üçün Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevə və YAP sədrinin birinci müavini Mehriban xanım Əliyevaya komissiya üzvləri adından təşəkkürlərini bildirib, komissiyanın üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi istiqamətində səylə çalışacaqlarını qeyd ediblər.

Daha sonra təşkilati məsələlərə baxılıb. Deputatlar Sevinc Hüseynova Təftiş Komissiyasının sədri, Nizami Səfərov isə sədr müavini seçilib. İclasda, həmçinin YAP-ın yeni Nizamnaməsinə əsasən, Təftiş Komissiyasının reqlamentinin hazırlanması və digər məsələlər də müzakirə olunub.

Komissiyanın üzvləri müzakirə edilən məsələlərlə bağlı fikir və təkliflərini bildiriblər.

# Hakimiyyətsizlik illərinin ağır nəticələri

**Bu gün, Yeni Azərbaycan Partiyasının regionun ən güclü siyasi təşkilatı olduğu və ölkənin həyatında mühüm rol oynadığı bir vaxta keçmişə dönüb onun yarandığı dövrə nəzər salmamaq mümkün deyildir. Mən də o günləri yaxşı xatırlayıram və bilavasitə həmin hadisələrin içərisində olmuşam.**

AXC-Müsavat cütlüyünün yaratdığı anarxiya, xaos insanları cana gətirmişdi. Ərzaq çatışmırdı, çörək tapılmırdı, işıq yanmırdı, su gəlmirdi. Bir tərəfdən də erməni təcavüzü güclənmişdi. Regionlarda özbaşınalıq baş alıb gedirdi. AXC üzvləri hakimiyyət orqanlarını iflic etmişdilər. Onlar təhsilindən, təşkilatçılığından, hörmət və mədəniyyətdən asılı olmayaraq istədikləri adamı rayonlara rəhbər təyin edir, onlara tabe olmayanları aşağılayır, hətta qətlə yetirirdilər. Çay paylayanlar, montyorlar, mağaza müdirləri və digər idarəçilik təcrübəsi olmayanlar bir andaca böyük bir rayonun rəhbərinə çevrilir, əhalini səfərbər etmək, erməni təcavüzünün qarşısını almaq əvəzinə soyğunçuluqla məşğul olurdular.

Əli Kərimlinin, Arif Hacılının, Rəhim Qazıyevin, Pənah Hüseynovun və digərlərinin etimad göstərdikləri bu kadrlar beş nəfəri idarə etmək, daşı daş üstünə qoymaq, bir nəfərin belə dərdinə qalmaq qabiliyyətinə malik olmasalar da, vəzifəyə gəldikdən sonra özlərini hamıdan savadlı, çox bilən, bacarıqlı hesab edir və ziyalı insanları hörmətdən salır, səsini çıxardanı susdururdular.

Ölkənin hər yerində - xüsusilə Qarabağ regionunda bu hadisələr daha ciddi xarakter almışdı. Xankəndidə torpaqlarımızı işğal etmək üçün planlar hazırlandığı, tədbirlər keçirildiyi bir vaxtda Ağdamda, Bərdədə, Ağcabədidə, Tərtərdə, Goranboyda, Yevlaxda və digər ətraf rayonlarda cəbhəçilər vəzifəyə gəlmək, kimisə işdən çıxartmaq, pul gətirən yerlərə sahib olmaq uğrunda mübarizə aparırdılar. Vəzifəyə küçədə daha çox çığıranlar, adamları təhqir edənlər, soyğunçular, cinayətkar adamlar belə gətirilirdi.

O vaxtlar ziyalı, vətənin və xalqın gələcək taleyini düşünən insanlar təqiblərə, təhqirlərə məruz qalsalar da, ümidlərini üzmürdülər, inamlarını itirmirdilər, üzlərini Naxçıvana - Heydər Əliyevə tuturdular, ondan kömək gözləyirdilər. Prezident seçkilərinə getmək üçün yaş senzini götürmək, Heydər Əliyevin parlamentin iclaslarında fəal iştirakını təmin etmək üçün imzalar toplanılır, müdafiə komitələri yaradılır, Ulu Öndərə müraciətlər ünvanlanırdı. Düzdü, o zamanlar AXC-Müsavat cütlüyü bunun qarşısını qətiyyətlə almağa çalışsalar da, hər bir vasitəyə, zorakılığa əl atsalar da, ancaq istədiklərinə nail ola bilmirdilər. Heydər Əliyevə olan sonsuz məhəbbət bütün çətinliklərə sinə gərir, ziyalı insanlar ölümdən belə çəkinməyərək Heydər Əliyevi müdafiə etmək uğrunda qətiyyətlə mübarizə aparırdılar. Yaxşı yadımdadır, o vaxtlar Bərdənin hörmətli ziyalılarından olan Azay Abdıyev Ağcabədiyə tez-tez gəlirdi. Biz - kəndlərə gedir, yaş senzinin götürülməsi ilə əlaqədar deputatlardan, ziyalılardan imza alırdıq. Bir gün geri qayıdanda xəbər tutduq ki, cəbhəçilər Hindarx kəndində yolu kəsib bizi gözləyirlər. Başqa yolla rayon mərkəzinə gəlməli olduq. Ancaq çox keçmədi ki, özlərini demokrat adlandıran cəbhəçilərin qoçu dəstələri tərəfindən Azay müəllim avtomatdan açılan atəş nəticəsində qıçından ağır yaralandı.

Bax bu idi Xalq Cəbhəsinin demokratiyası. Ağcabədi sakinləri bu "demokratiyanın" - Leyla Yunusun, Rəhim Qazıyevin rayonda törətdikləri hərəkətlərin acısını bu gün də unutmayıblar. O vaxtlar silahlı yolla rayon partiya komitəsinin binasını bir andaca zəbt edən cəbhəçilər sonralar neçə-neçə insanın qətlinə, təhqir olunmasına, təsərrüfatların dağıdılmasına, evlərin qarət edilməsinə, insanların şəxsiyyətlərinin alçaldılmasına imkan yaratdılar, səbəbkar oldular.

Belə bir vaxtda xalqı öz ətrafına toplaya bilən partiyanın yaradılması, xalqın etimadını qazanan, təcrübəli, idarəçilik bacarığı olan bir insanın hakimiyyətə gətirilməsi dövrün tələbi və olduqca zəruri idi. Çünki ölkə parçalanırdı, böhran içərisində idi, xalq əzilirdi. Xalq Cəbhəsi iqtidarı ölkədə özbaşınalığın, xaosun genişlənməsini, qarşıdurmaların ciddi xarakter almasını şüurlu şəkildə həyata keçirirdi. Çünki onlar ölkəni idarə edə bilmir, torpaqları qorumaq, insanları müdafiə etmək iqtidarında deyildi. Öz bacarıqsızlıqlarını, savadsızlıqlarını pərdələmək üçün onlara münaqişə, qarşıdurma yaratmaq da çox sərf edirdi. Digər tərəfdən, torpaqlarımızın düşmənlərə təslim edilməsi üçün qarşıdurmalar əlverişli şərait yaradırdı və AXC hakimiyyəti qəsdən insanları qarşı-qarşıya qoyur, ölkəni parçalamaq üçün vətəndaş müharibəsinə zəmin yaradırdılar. Beləliklə, ölkə və xalq uçuruma gedirdi...

YAP məhz bu ağır dövrdə yarandı. YAP-ın yaradılması xalqın Heydər Əliyevə olan sonsuz ehtiram və inamının ifadəsi idi. Çünki Ulu Öndər istər Azərbaycanda çalışdığı, hakimiyyətdə olduğu bütün illərdə, istərsə də Moskvada yüksək vəzifə daşıdığı dövrdə, həmişə xalqla birlikdə olmuş, vətənə sədaqəti, xidməti ilə insanların böyük məhəbbətini qazanmışdı. O, bütün çətinliklərə sinə gərərək xalqının mənafeyi və gələcəyi naminə inamla mübarizə aparmış və öz gərgin, düşünülmüş fəaliyyəti, nəcib əməlləri ilə Azərbaycana şöhrət qazandırmışdı.

Azərbaycan xalqı bu xidmətləri görmüşdü, öz həyatında, ölkənin taleyində hiss etmişdi. Ona görə də Heydər Əliyevi dəstəkləməkdə haqlı idi. Vəzifədə olanda da, olmayanda da xalq Heydər Əliyevə inanırdı, onu sevirdi. Əgər 1992-ci ilin Prezident seçkilərində Xalq Cəbhəsi hakimiyyəti demokratiyaya zidd addım atıb yaş senzi tətbiq etməsəydi Heydər Əliyev xalqın əksər səsini qazanıb Azərbaycan Prezidenti seçiləcəydi. Bu şübhəsiz idi. Çünki xalq Ulu Öndəri ölkəyə rəhbərliyə tələb edirdi, onun tərəfində idi.



Yaxşı xatırlayıram. Həmin seçkidə mən azad müşahidəçi kimi iştirak edirdim və bir neçə seçki məntəqəsində olmuşdum. Səsvermədə iştirak edənlərin çoxu Heydər Əliyevə səs verdiklərini bildirirdilər. Onlar bülletenlərin arxasına "Heydər Əliyevə səs verirəm" yazıb qutulara atır və bununla da ona öz ehtiramlarını ifadə edirdilər.

Xalq öz seçimində yanılmırdı. Sonrakı hadisələr də bunu sübut etdi. YAP yarandı və Heydər Əliyev ikinci dəfə xalqın təkidli tələbi ilə hakimiyyətə gəldi. Azərbaycanın bugünkü inkişafı, beynəlxalq aləmdə qazanılan mövqe, düşmən üzərində tarixi qələbəmiz, ölkədə yaranmış ictimai-siyasi sabitlik göstərir ki, xalq yanılmamış, seçimi uğurlu olmuşdur. Deməli, yol düzgün seçilmiş, reallıqlar düzgün qiymətləndirilmişdir. Çünki Heydər Əliyev ideyalarına, əməllərinə arxalanan xalqın yolu aydın, gələcəyi uğurludur.

Biz bunu Ulu Öndərin etibar etdiyi, özü qədər inandığı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin timsalında, Yeni Azərbaycan Partiyasının fəaliyyətində, xalqımızın birlik və həmrəyliyində aydın görürük. Heydər Əliyev ideyalarından yaranan YAP cənab İlham Əliyevin rəhbərliyi sayəsində yeni keyfiyyət mərhələsinə qədəm qoymuş, xalqın çox böyük dəstəyini qazanan güclü siyasi təşkilata çevrilmişdir. Yeni Azərbaycan Partiyasının VII qurultayı bunu bir daha göstərdi və həqiqətən də xalqın partiyası olduğunu sübut etdi. Azərbaycan Respublikasının Prezidenti, YAP-ın sədri İlham Əliyev qurultayda partiyanın yaranma tarixindən, onun keçdiyi şərəfli yoldan danışarkən dedi: "Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi. Burada, əlbəttə ki, onun 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər önəmli rol oynayırdı".

Ölkə rəhbəri keçmişi xatırlatmaqla həmin çətin anları unutmamağı, gələcək nəsillərə çatdırmağı, dünəni və bu günü lazımınca qiymətləndirməyi, tarixdən ibrət dərsi götürməyi, vətəni, torpağı vəzifəyə satanlara, ölkəmizin imicinə qara yaxmağa çalışanlara, xaricdən maliyyələşib xalqımızın əleyhinə işləyənlərə qarşı barışmaz olmağı tövsiyə edir. O, bir vaxtlar torpaqlarımızı ermənilərə satan, xalqın başına müsibətlər açan, fəlakətlər törədən və çətin gündə qaçıb gizlənən AXC-Müsavat qalıqlarının bu gün xalqın adından danışmalarını qəbul etmir, onlara etirazını bildirərək deyir: "O vaxt hakimiyyətdə olan AXC-Müsavat cütlüyü ancaq öz mövqelərini güdürdü. Hakimiyyətə gəlmiş təsadüfü adamlar eynən Ermənistanda 2018-ci ildə hakimiyyətə gələn insanlarla, elə bil ki, əkiz qardaşdırlar. Təcrübəsiz, biliksiz, mədəniyyətsiz, səriştəsiz, qorxaq, fərari, daha hansı epitet qaldı. İstənilən mənfi epitet bunlara yaraşır. Bax bunlar idi o vaxt Azərbaycanı idarə edənlər".

Bir çox hallarda AXC-Müsavat cütlüyünün nümayəndələri onların azmüddətli hakimiyyətlərinin bu qədər tənqid edilməsini şişirtmə adlandırmaqla özlərinə bəraət qazandırmaq istəyirlər. Xalq Cəbhəsi əslində 1988-ci ildən başlayaraq bu günə kimi xalqa xəyanət mövqeyindədir. Ölkənin imicinə ziyan vurmaq, insanları çaşdırmaq, yalan, şantaj yolunu tutmuşdular. Onlar xalqımızın və ordumuzun düşmən üzərindəki tarixi qələbəsinə belə sevinmirlər, əksinə, öz çıxışları, bəyanatları ilə ermənipərəst mövqe tutduqlarını bir daha sübut edirlər. Əli Kərimlinin son çıxışlarının birində səsləndirdiyi fikirlər onun düşmən obrazını bir daha ortaya qoyur. O deyir: "İşğaldan azad edilmiş ərazilərlə bağlı hakimiyyətin prioriteti əhalini məskunlaşdırmaq yox, o ərazilərdə də təsərrüfat yaradıb, pul qazanmaqdır".

Əli Kərimli özü başa düşmək istəməsə də, xalq yaxşı bilir ki, 30 il işğal altında qalan torpaqları onlar ermənilərə satmışdılar və erməni qardaş-bacılarının o torpaqları əkib - becərmələri, talan etmələri bu bədxahları heç vaxt narahat etməmişdi. Ancaq indi azərbaycanlıların həmin əraziləri abadlaşdırması, işğaldan azad edilmiş torpaqlarda əkin aparılması onları narahat etməyə başlamışdır. Bax budur radikal müxalifətin iç üzü, onların vətənə, torpağa münasibəti, demokratiyası, xalqa xidməti. Bunların keçmişdə və indi törətdikləri hadisələr, kütləvi mitinqlərə çağırışlar, yalanlar, iftiralar sözsüz ki, unudula bilməz və unudulmamalıdır.

Əlbəttə ki, yaşlı nəsildən fərqli olaraq gənclər 1990-1993-cü illərin çətinliklərini, AXC-Müsavat hakimiyyətinin özbaşınalıqlarını gözləri ilə görməmişlər və təəssüflər olsun ki, bəziləri bu gün də Əli Kərimli, Cəmil Həsənli kimi dönüklərin vədlərinə inanırlar.

Prezident tarixi faktlara əsaslanaraq bildirdi ki, o dövrdə hakimiyyətdə olanların çoxunun əli Azərbaycan xalqının qanına batmışdır. Torpaqların erməni təcavüzkarlarına verilməsində cəbhəçilər böyük rol oynamış, işğalı reallaşdırmaqla hakimiyyətə gəlmələrini təmin etmişlər.

Ölkə rəhbəri onu da qeyd edir ki, "Biz 1990-cı illərin tələbləri ilə XXI əsrdə yaşaya bilmərik. Hətta bu gün müharibədən sonra da yeni dövr başlayır. Əvvəlki dövrlərdə əldə edilmiş bütün uğurları bir kənara qoymalıyıq... Mən demişəm, indi Qarabağın bərpası ilə bağlı bizim əsas rəqibimiz zamandır. Ölkənin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli, dayanıqlı inkişaf təmin edilsin".

YAP-ın VII qurultayında səslənən fikirlər, təkliflər əlbəttə ki, ölkənin gələcək inkişafına, ictimai-siyasi sabitliyin təmin olunmasına, dövlətin qüdrətinin artırılmasına, müstəqilliyinin əbədi olmasına, vətəndaş həmrəyliyinə, siyasi dialoqun genişləndirilməsinə demokratiya və aşkarlığın təmin edilməsinə, xalqımıza və ölkəmizə qarşı radikal mövqedə duranlara, uğurlarımıza kölgə salanlara, qara yaxanlara qarşı birgə mübarizə aparılmasına istiqamətləndirilmişdir.

Cənab İlham Əliyevin qurultaydakı geniş məzmunlu çıxışı nəinki ölkəmizin bu gününə və sabahına, eləcə də dünya dövlətlərinin birliyinə, əməkdaşlığına, sülhün əmin-amanlığın təmin edilməsinə, bəşəriyyətin xoşbəxtliyinə hesablanıb və elmin, düşüncənin, insanlığın inkişafına xidmət edir. Çünki Azərbaycan xalqının başı müharibələrdən, hakimiyyətsizlikdən, iddia və qarşıdurmalardan, yalançı, saxta vətənpərvərlikdən çox bəlalar çəkib. O bəlaları xalqımız uzun müddət unutmayacaq və unuda bilməz. Ona görə ki, o, bir xalqın faciəsinin, qara günlərinin tarixidir.

Xalqımız yeni tarix yazıb-yaradırsa, yeni reallıqlar dövrünə qədəm qoyursa, keçmişi tez-tez xatırlamalı, həqiqətləri dərk etməli, dünənlə bu günü qarşılaşdırmalı, qiymətləndirməli və düzgün nəticə çıxarmalıdır. Məhz belə olan halda biz azad olunmuş torpaqlarımızı cənnətə çevirəcək, ölkəmizi daha da şöhrətləndirəcək və xalqımızın tarixinə yeni, unudulmaz səhifələr yaza biləcəyik.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Vətəndaş maraqlarının təminatçısı

## İlham Əliyevin geniş islahatlar proqramı sayəsində Azərbaycan dövləti ardıcıllıqla və sürətlə hədəflərinə çatır

***Əvvəli 1-ci səh.***

Xatırladaq ki, iki il əvvəl Novruz bayramı münasibətilə xalqımızı təbrik edən Prezident İlham Əliyev islahatların dərinləşəcəyini bəyan etmişdi: *"İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna sövq edir".*

### Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir

İnkişaf prosesləri dövlət idarəçiliyi sistemininin səmərəliliyinin yüksəldilməsini, çevik və məqsədyönlü fəaliyyət göstərən idarəetmə strukturunun formalaşdırılmasını tələb edir. Əgər mükəmməl və mütərəqqi idarəçilik sistemini formalaşdırmaq mümkün olmazsa, qarşıya qoyulan vəzifələr də yarımçıq qalar. Belə olduğu halda bir çox müəyyən olunmuş iqtisadi və siyasi vəzifələr yerinə yetirilməz. Hər bir inkişaf etmiş dövlətin tarixi sübut edir ki, onun yüksəlişinə uyğun olaraq idarəetmə aparatı da daim yenilənir. Ölkənin çevik idarəçilik sisteminin olması inkişafın əsas şərtlərindən biridir. Bundan irəli gələrək struktur və kadr islahatları da həyata keçirilir.

Bu məqsədlə dövlət orqanlarında struktur islahatları aparıldı. Mərkəzi icra hakimiyyəti orqanlarını əhatə edən qurumların bəziləri ləğv edildi, bəzilərinin əsasında yeniləri yaradıldı. Dövlət idarəetməsinin icra hakimiyyəti sistemində də islahatlar oldu. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Nazirlər Kabinetində, yerli icra hakimiyyəti orqanlarında, regional idarəetmə orqanlarında, ümumiyyətlə, dövlət və cəmiyyət həyatının bütün sahələrində aparılan struktur və kadr islahatları ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı.

Prezident İlham Əliyevin fərmanı ilə dövlət hakimiyyətinin əsas qollarından biri olan məhkəmə-hüquq sistemində ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə yeni islahatlara başlanıldı.

Dövlət hakimiyyətinin bütün qollarını əhatə edən islahatların qanunvericilik hakimiyyətini də əhatə etməsi ölkədə baş verən köklü yeniliklərdən irəli gələn sosial və siyasi sifariş idi. Bu baxımdan dərinləşən islahatlara paralel olaraq siyasi islahatların davam etdirilməsi, qanunvericilik orqanının yenilənməsi mühüm əhəmiyyət kəsb etdi.

Yeni Azərbaycan Partiyasının VII qurultayında Prezident İlham Əliyev Azərbaycanın genişmiqyaslı islahatlar aparan ölkə olduğunu bəyan edərək dedi: *"Ötən son üç il ərzində prezident və parlament seçkiləri keçirilmişdir. Prezident və parlament seçkilərinin ölkəmizin müasir həyatında xüsusi yeri vardır. Xüsusilə nəzərə alsaq ki, prezident və parlament seçkilərində ölkəmizdə gedən islahatlar daha bir mərhələyə qədəm qoydu və bu gün Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir. Biz gündəlik həyatda, ölkəmizin iqtisadi göstəricilərində, sosial sahədə əldə edilmiş nailiyyətlərdə görürük ki, bu islahatların çox böyük əhəmiyyəti var. Eyni zamanda, ictimai-siyasi iqlimin sağlamlaşdırılmasında da bizim təşəbbüslərimizin, islahatlarımızın böyük rolu vardır".*

Son illərin reallıqları göstərir ki, İlham Əliyevin son prezident seçkilərindən sonra bəyan etdiyi proqram icra olunur, islahatlar uğurlu nəticələr verir. Azərbaycan dövləti ardıcıllıqla və sürətlə öz hədəflərinə çatır. Ümumilikdə isə islahatlar həm makroiqtisadi vəziyyətə, həm vətəndaşların rifahının gücləndirilməsinə, həm də idarəçiliyin təkmilləşdirilməsinə, şəffaflaşdırılmasına xidmət edir. Bütün bunlar vətəndaş məmnuniyyətini və sosial həmrəyliyi təmin edən əsas amillərdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "YAŞAT" Fondu ilə Türkiyə vəqfləri arasında şəhid övladlarının Türkiyədə təhsil alması və qazilərin müalicəsi ilə bağlı danışıqlar aparılıb



"Türkiyəyə səfərimizin məqsədlərindən biri də Azərbaycanın "YAŞAT" Fondu ilə eyni vəzifələri daşıyan Türkiyənin vəqfləri arasında əməkdaşlıq əlaqələrinin qurulmasıdır. Bu sahədə uğurlu və məhsuldar görüşlər keçirdik".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib.

Türkiyə Silahlı Qüvvələrinin nəzdində fəaliyyət göstərən "Elele" (Əl-ələ), "Eğitim" (Təhsil), "Dayanışma" (Həmrəylik) və "Mehmetçik" (Əsgər) fondlarında konkret məsələlər ətrafında səmərəli müzakirələrin aparıldığına diqqəti çəkən dövlət agentliyinin rəhbəri deyib ki, şəhid övladlarının Türkiyədə təhsil alması və qazilərin müalicəsi ilə də bağlı danışıqlar aparılıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev bildirib ki, səfər çərçivəsində Türkiyədə fəaliyyət göstərən azərbaycanlı iş adamları ilə keçirilən görüşdə də "YAŞAT" Fondunun strateji məqsəd və məramları barədə müfəssəl məlumat vermək fürsəti olub.

# "YAŞAT" Fondu ağır yaralanan şəxslərin müalicə xərclərinin qarşılanması üzrə işləri davam etdirir







"YAŞAT" Fondu ağır yaralanan şəxslərin müalicə xərclərinin qarşılanması üzrə işləri davam etdirir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qazilərimiz Misir Axundovun, Cavid Arzumanovun və Həsən Mehdiyevin əməliyyat xərcləri fond tərəfindən qarşılanıb.

Allah qazilərimizə şəfa versin!

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: **https://yashat.gov.az/report/tableau**

Həmçinin fondun 8110 "Çağrı mərkəzi" fəaliyyət göstərir.

# Qazimiz hər iki ayağı üçün yüksək texnologiyalı protezlərlə təmin edildi



Vətən müharibəsində şərəfli döyüş yolu keçən Abdulla Abdullayev döyüşlərin birində ağır yaralanaraq hər iki ayağını itirib. Prezident İlham Əliyevin sərəncamı ilə o, "Cəsur döyüşçü" medalı ilə təltif edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Abdulla Abdullayevi yüksək texnologiyalı protezlərlə təmin edib. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, Mingəçevir şəhər sakini olan Abdulla bu məqsədlə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinə dəvət edilib.

Mərkəzdə ilkin müayinəsi və müvafiq işlər aparılıb. Müəyyən hazırlıq mərhələsindən sonra isə Abdulla hər iki ayağı üçün yüksək texnologiyalı protezlərlə təmin olunub.

Xatırladaq ki, nazirlik ötən ilin dekabrından qazilərimizin yüksək texnologiyalı protezlərlə təminatına başlayıb. Artıq 15 hərbçi müasir protezlərlə təmin olunub və bu sahədə işlər davam edir.

# Vətən müharibəsinin şəhidi Niyazi İsgəndərovun ailəsinə üçotaqlı mənzil verildi

Şəhid ailələrinin dəstəklə təminatı, o cümlədən mənzil-məişət məsələlərinin həllində sosial məsuliyyətdən çıxış edən sosial tərəfdaşlarımız tərəfindən xeyirxah təşəbbüslər, nəcib addımlar davam edir. "AS Group İnvestment" MMC şirkəti də bu proseslərə öz töhfəsini verir.





Vətən müharibəsində şücaət göstərmiş və döyüşlərin birində ağır yaralanaraq şəhid olmuş çavuş Niyazi İsgəndərovun ailəsinin mənzil-məişət şəraitinin ağır olması səbəbindən ailənin yeni mənzillə təmin olunması məsələsi diqqətdə saxlanıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin sosial tərəfdaşlarından olan "AS Group İnvestment" MMC şirkəti bu istiqamətdə dəstəyini göstərib.

Mingəçevir şəhərində yataqxanada yaşayan şəhid ailəsinə şirkət tərəfindən həmin şəhərdəki "Park Residence" yaşayış binasından 3 otaqlı mənzil hədiyyə edilib.

Şirkətin və nazirliyin nümayəndələri şəhidin ailəsi ilə görüşərək onlara mənzil sənədlərini təqdim ediblər. Yeni mənzilin tam təmiri və bütün lazımi avadanlıqlarla təchizatını da şirkət öz üzərinə götürüb.

Şəhid çavuş Niyazi İsgəndərov hələ 2016-cı il Aprel döyüşlərində qəhrəmanlığı ilə fərqlənib və Vətən müharibəsi başlayan gündən də döyüşlərə qatılıb. Oktyabrın 5-də Suqovuşanda ağır yaralanaraq şəhid olub. Prezident İlham Əliyevin sərəncamları ilə İsgəndərov Niyazi Şahvələd oğlu "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin ailəsinə aylıq sosial ödənişlərin təyinatı da həyata keçirilib və ailənin yaşayışı bundan sonra da diqqətdə saxlanılacaq.

# Qarabağda bərpa-quruculuq işlərində dost ölkələrin şirkətləri də çalışacaq

*Əvvəli 1-ci səh.*

Azərbaycanda fəaliyyət göstərən İtaliya şirkətlərinin də sayı getdikcə artır. İndi onlar ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, erməni vandallarının dağıtdığı şəhər və kəndlərimizin bərpasında da iştirak edəcəklər. Artıq "Azərenerji" ASC ilə İtaliyanın "Ansaldo Energia" şirkəti arasında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. Videokonfrans formatında imzalanan müqaviləyə əsasən, Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunacaq 4 ədəd 110 kilovoltluq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz İtaliya şirkəti həyata keçirəcək.

Azad olunmuş ərazilərin bərpası və inkişafı sahəsində İtaliya iş adamları ilə əməkdaşlıq imkanlarını müzakirə etmək üçün Azərbaycanın Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin videoformatda görüşü keçirilib.

İtaliya təşkilatları Qarabağ regionunda şəhərsalmanın planlaşdırılması, zəngin tarixi-memarlıq irsimizin bərpası və yenidənqurma işlərində iştirak etməyə dəvət olunub. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin və Mədəniyyət Nazirliyinin nümayəndələri Qarabağın yaşayış məntəqələrinin baş planlarının hazırlanması və tarixi-memarlıq abidələrinin bərpası sahəsində görülən işlər və əməkdaşlıq imkanlarına dair təqdimatlarla çıxış ediblər. Eləcə də İtaliyanın bir sıra dövlət təşkilatlarını və iş adamlarını təmsil edən assosiasiyaların nümayəndələri fəaliyyətləri və Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin inkişafı ilə bağlı göstərə biləcəkləri xidmətlər barədə ümumi məlumat veriblər. Görüşdə İtaliya Ticarət Agentliyinin, Memarlıq, Mühəndislik və Texniki-İqtisadi Konsaltinq Şirkətləri Assosiasiyasının, Memarlıq, İncəsənət, Restavrasiya və Şəhər Bərpası üzrə Assosiasiyasının, Sənaye və Xidmət Şirkətləri Assosiasiyasının, İxrac-Kredit Agentliyinin, Milli İnşaatçılar Assosiasiyasının və Elektrik Enerjisi Şirkətləri Assosiasiyasının təqdimatları edilib. Bu da əməkdaşlıq istiqamətlərinin geniş olacağı deməkdir.

Qarabağın "yaşıl enerji" zonasına çevrilməsində də xarici şirkətlərin yaxından iştirakı gözlənilir. Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında bu barədə demişdir: "Kəlbəcər-Laçın zonasında külək stansiyaları, çünki orada çox güclü küləklər olur, Zəngilan-Cəbrayıl zonasında isə günəş stansiyaları, çünki orada günəş şüalarının il ərzində miqdarı da çox böyükdür və əgər belə demək olarsa, günəş şüalarının keyfiyyəti də buna imkan verir. Beləliklə, bu gün Azərbaycanın müvafiq strukturlarına əcnəbi tərəfdaşlarla bu məsələlər üzərində işləmək tapşırığı verilib. Yəni, bu, çox böyük perspektivə malikdir. Üstəlik, dediyim kimi, biz artıq Qarabağı "yaşıl enerji" zonası elan etmişik və bunun üçün, ilk növbədə, investorları gözləyirik".

Hazırda "yaşıl enerji" zonasının yaradılması məqsədilə bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı özəl sərmayələrin cəlb edilməsi üçün investorlarla müzakirələr aparılır. Eyni zamanda ənənəvi enerji resurslarından elektrik enerjisi istehsalı sahəsinə də özəl investisiyaların cəlb olunması istiqamətində işlər davam etdirilir. Bu barədə İqtisadiyyat və Energetika nazirlikləri birgə məlumat veriblər.

Mənfur düşmənin dağıtdığı ərazilərdə yenidənqurma işlərində iştirak etməkdə İran şirkətləri də maraqlıdırlar. Belə ki, Xudafərin Su Anbarının birgə istifadəsi müzakirə edilib. Elektrik stansiyalarının inşasına dair İran tərəfi ilə razılıq əldə olunub. Artıq Xudafərin və Qız qalası elektrik stansiyalarının tikintisi ilə bağlı büdcə ayrılıb. Onların ümumi istehsal gücü 280 meqavat olacaq və bu həcm iki ölkə arasında bölüşdürüləcək.

Eləcə də Rusiya və Azərbaycan dost ölkələr olduğuna görə, təbii ki, işlərə Rusiya şirkətləri də cəlb ediləcək.

Prezident İlham Əliyev bu il martın 10-da Macarıstanın Xarici işlər və Ticarət naziri Peter Siyartonu videoformatda qəbul edərkən bir daha diqqətə çatdırıb ki, işğal altında olan ərazilərimizin azad edilməsindən sonra orada yenidənqurma sahəsində çoxlu imkanlar mövcuddur: "Həmin ərazilər tamamilə viran qoyulub və yəqin ki, siz də həmin videomateriallarla tanışsınız. Oralar darmadağın edilib və biz həmin əraziləri sıfırdan yenidən qurmalıyıq. Söhbət Azərbaycanın böyük bir hissəsi - 10 min kvadratkilometrdən artıq ərazidən gedir və biz bu işi tərəfdaşlarımızla əməkdaşlıq şəraitində icra etmək istəyirik. Mən artıq bir neçə dəfə bunu ictimai şəkildə bəyan etmişəm ki, biz dost ölkələrdən olan şirkətləri əməkdaşlığa dəvət edəcəyik. Macarıstan Azərbaycanın ən yaxın dostlarındandır. Əminəm ki, Macarıstan şirkətlərinin də azad edilmiş ərazilərdə bizimlə birlikdə çalışmaqla bağlı çoxlu imkanları olacaq".

Nazir Peter Siyarto Macarıstanın Azərbaycanla bağlı mövqeyinin həmişə müsbət olduğunu və bunu gizlətmədiyini bildirmiş, hər zaman həqiqəti söyləyəcəyini, münasibətini açıq ifadə edəcəyini çatdırmışdır.

Beləliklə, dostluq davam edirsə, əməkdaşlıq və tərəfdaşlıq da inkişaf edəcək. İşğaldan azad etdiyi böyük ərazini yenidən qurarkən etibarlı, sınanmış dostları Azərbaycanın yanında olacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Laçın rayonu yaxın gələcəkdə ölkə iqtisadiyyatının inkişafına sanballı töhfə verəcək



*Əvvəli 1-ci səh.*

Rəsmi statistik məlumatlara görə, rayonda 1988-ci ildə, həmçinin 175 hektar meyvə və giləmeyvə bağları mövcud olmuşdur. Bu bağlardan tonlarla məhsul əldə edilmişdir. Eləcə də həmin il 83 hektar sahədən 142 ton tütün götürülmüşdür. Ümumiyyətlə, 1980-1988-ci illərdə rayon üzrə tütünçülükdə məhsuldarlıq 19,3 sentner olmuşdur. 2025-ci ildə isə Laçın rayonunda intensiv üsullarla əkilib-becərilməsi hesabına tütün istehsalının 200 tona çatdırılması proqnozlaşdırılır ki, bu da ölkə üzrə tütün istehsalının təxminən 1,4 faizi deməkdir.

Torpaq, iqlim, su resursları, eləcə də tarixən mövcud olan bitkiçilik ənənəsi rayonda meyvəçilik və tərəvəzçilik sahəsində də yüksək istehsal potensialı vəd edir. Bunlar nəzərə alınaraq, zonada pilot layihə kimi 300 hektarlıq intensiv nar, alma və xurma bağları salınacaq. Bundan əlavə, 1000 hektara qədər sahədə kartof, tərəvəz və bostan bitkiləri əkiləcəyi gözlənilir. Yeri gəlmişkən qeyd edək ki, 2025-ci ilə qədər rayonda 7,6 min hektar əkin və bağ sahələrindən 38,4 min ton məhsul götürülməsi proqnozlaşdırılır.

Ekspert onu da vurğulayır ki, 1988-ci ildə rayonda iribuynuzlu heyvanların sayı 45 min olmuşdur. Xırdabuynuzlu heyvanlar üzrə isə bu rəqəm 22 min idi. Heyvandarlıqda rayon üzrə digər göstəricilər isə belə olmuşdur: ət istehsalı 3276, süd istehsalı 13923, yun istehsalı 354 ton, yumurta istehsalı 4,1 milyon ədəd.

Proqnozlara görə, 2025-ci ilə qədər Laçın rayonunda 75,6 min iribuynuzlu və 402,3 min xırdabuynuzlu mal-qara bəslənəcək ki, bu da ölkədə heyvandarlığın inkişafına və sürü dövriyyəsinin təqribən 3,7 faiz artımına səbəb olacaq. Laçında həmçinin 110 min baş quşun və 18 min arı ailəsinin olacağı da proqnozlaşdırılır. Həmçinin diri və kəsilmiş çəkidə ət istehsalında 0,2, yun istehsalında 2,6, süd və yumurta istehsalında müvafiq olaraq 1,7 və 0,02 faiz artım proqnozlaşdırılır.

Laçının tütün, süd, gön-dəri və yunun emalı müəssisələrinin qurulması üçün də böyük potensialı var. Bütün bunlar nəzərə alınarsa, rayonda aqrosənayenin təmərküzləşmiş və klasterial inkişafından ölkə iqtisadiyyatına töhfənin sovet dövründəkindən daha artıq olacağını indidən demək olar.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyi psixoloqlarının və yerli icra hakimiyyəti nümayəndələrinin şəhid ailələrini ziyarətləri davam edir

Vətən müharibəsi zamanı şəhid olmuş və itkin düşmüş hərbi qulluqçuların, yaralanmış qazilərin ailə üzvlərinin Müdafiə Nazirliyinin mütəxəssis-psixoloqları, yerli icra hakimiyyəti nümayəndələri və "Əsgərə xatirə kitabı" layihəsinin rəhbərliyi tərəfindən ziyarət olunması davam etdirilir.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ziyarətlər zamanı ailələrin sosial problemləri öyrənilir və onlara psixoloji dəstək fəaliyyəti həyata keçirilir.

Müdafiə Nazirliyinin zabitləri və dövlət qulluqçuları, Şamaxı, İsmayıllı, Ağdaş və Şəki yerli icra hakimiyyəti orqanlarının nümayəndələri, həmçinin "Əsgərə xatirə kitabı" layihəsinin rəhbəri Nuranə Şıxəliyeva və icraçı direktoru Məltəm Şıxəliyeva psixoloji yardıma və reabilitasiyaya ehtiyacı olan şəxsləri müəyyənləşdirərək onların problemlərinin həlli üçün ünvanlı maddi yardım göstərib və psixoloji dəstək tədbirləri həyata keçirib.

Bu istiqamətdə tədbirlər davam etdirilir.















# Ombudsman Azərbaycanın işğaldan azad edilmiş ərazilərində işarə olunmamış minalı ərazilərlə bağlı bəyanat yayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycanın işğaldan azad edilmiş ərazilərində işarə olunmamış minalı ərazilərlə bağlı bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili olaraq Azərbaycanın işğaldan azad olunmuş ərazilərində insanların həyatı, sağlamlığı və təhlükəsizliyinə təhdid olan işarə olunmamış minalı ərazilərlə bağlı ciddi narahatlığımı ifadə edirəm.

Ermənistan və Azərbaycan arasında 44 gün davam etmiş müharibə 10 noyabr 2020-ci il tarixində Ermənistan, Azərbaycan və Rusiya arasında imzalanmış üçtərəfli Bəyanata əsasən başa çatmışdır. Azərbaycanın 30 ilə yaxın işğal altında qalmış əraziləri beynəlxalq hüquqa uyğun olaraq azad edilmişdir.

Buna baxmayaraq, azad olunmuş şəhər və kəndlərin Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə dağıdılması ilə yanaşı, ərazilər işarə olunmadan minalanmışdır. İşğal müddətində həmin ərazilərdə yüz mindən artıq mina yerləşdirilmişdir və Ermənistan hələ də bu minaların xəritəsini verməkdən imtina edir.

Müharibənin başa çatmasından sonra hərbi qulluqçular və mülki şəxslərin minaya düşərək həlak olduğu və ya yaralandığı onlarca hal baş vermişdir. Müharibənin bitməsindən bu günə qədər həmin minalar səbəbindən 10 mülki şəxs həlak olmuş, 11 şəxs isə ağır yaralanmışdır.

Minalar onilliklər boyu aktiv qala və ciddi risk daşıya bilər. Onların mövcudluğu təkcə azad olunmuş ərazilərdə deyil, bütün regionda uzunmüddətli sabitliyə töhfə ola biləcək postmünaqişə dövründə məcburi köçkünlərin həmin ərazilərə geri qayıtmasına maneə törədir, ümumilikdə, bərpa və inkişaf prosesini əhəmiyyətli dərəcədə ləngidir.

Ermənistan bütün işğal olunmuş ərazilərdə hərbi obyektlərə qarşı nəqliyyat vasitələri əleyhinə minalarla yanaşı, insan əleyhinə minalardan da istifadə etməklə beynəlxalq humanitar hüququn fərq qoymadan hücum etmənin qadağan olunması prinsipini pozur və Azərbaycan üçün həmin minaların ağır nəticələrinin qarşısını alacaq minalanmış ərazilərin xəritələrini verməkdən boyun qaçırır.

1949-cu il tarixli Cenevrə Konvensiyalarının I Əlavə Protokoluna əsasən, hədəfi fərqləndirməyən silahların istifadəsi qadağandır.

Ermənistan insanların həyat və sağlamlığının qorunmasını təmin etmək üçün qeyd-şərtsiz minalanmış ərazilərin xəritələrini Azərbaycana təqdim etməlidir.

Günahsız insanların həyat və sağlamlığını qorumaq və insan hüquqlarının pozulmasına son qoymaq naminə bütün müvafiq beynəlxalq təşkilatları mandatları çərçivəsində təcili tədbirlər görməyə çağırıram.

## Biz birlikdə güclüyük!

### Azərbaycanın Səhiyyə Nazirliyi Rusiya istehsalı olan "Sputnik V" peyvəndini istifadə üçün təsdiq edib




**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Rusiya Federasiyasının istehsalı olan "Sputnik V" peyvəndini istifadə üçün təsdiq edib.**

Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidmətindən bildirilib.

Bu peyvənd artıq 50-dən çox ölkədə qeydiyyata alınıb və COVID-19 koronavirus infeksiyasına qarşı müvəffəqiyyətlə istifadə olunmaqla yüksək effektivlik göstərir. Rusiyada 6 milyondan çox insan "Sputnik V" vaksini ilə peyvənd olunub. Bu peyvəndin yaxın zamanda ölkəyə gətirilməsi barədə danışıqlar davam etdirilir.

# Vaksinasiya virusa qarşı kütləvi immunitetin qazanılmasını təmin edəcək

*Əvvəli 1-ci səh.*

BMT-nin Baş katibi Antonio Quterreş başlanan peyvənd kampaniyasının ümid verdiyini söyləyib. Eyni zamanda Quterreş gəlirləri aşağı səviyyədə olan bir çox ölkədə COVID-19 əleyhinə hələ bir dənə də peyvənd edilmədiyini, daha yüksək gəliri olan bəzi dövlətlərin isə artıq əhalisinin tam vaksinasiyası, yəni onların ən çox həsrətində olduqları məqsədinə doğru çatmaq üzrə olduqlarını xatırladıb. "İstehsalçılardan vaksinlərin alınması ilə bağlı ikitərəfli sövdələşmələr peyvəndlərə universal çıxışı təmin etmək imkanını azaldır", - deyə Baş katib xəbərdarlıq edib.

Ötən ayın 26-da Prezident İlham Əliyev də yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında vaksinlərin ölkələr üzrə bərabər bölünməməsi məsələsinə toxunmuşdu. Dövlət başçısı bildirmişdi ki, Azərbaycanın beynəlxalq səviyyədə, o cümlədən Qoşulmama Hərəkatının sədri kimi təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş xüsusi sessiyası keçirilib. 150-dən çox ölkə bu təşəbbüsü dəstəkləyib. Sessiya ötən ilin dekabr ayında keçirilib: "Mənim orada səsləndirdiyim tezislərdən biri vaksinlərin dünya ölkələri arasında ədalətli bölgüsü idi ki, bu məsələdə proteksionizm, millətçilik olmasın. Lakin təəssüf ki, tamam başqa mənzərə gördük".

Yanvarın 18-dən etibarən Azərbaycanda da vaksinasiyaya start verilib və ölkəmizdə Çinin "Sinovac" peyvəndindən istifadə edilir. Dövlət hesabına və könüllülük prinsipi ilə həyata keçirilən vaksinasiya respublikanın bütün rayonlarında uğurla davam etdirilir.

Nazirlər Kabinetinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"nda COVID-19 infeksiyası əleyhinə vaksinasiya ilə əhatə olunan əhali qrupları sosial və tibbi cəhətdən yüksək risk qrupu olaraq ayrılır.

Strategiyanın əsas məqsədi ölkədə yayılmış koronavirus pandemiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaqdır. Vaksinin əhəmiyyəti immuniteti gücləndirmək yolu ilə xəstəlikdən qorunmaqdan, infeksiyanın ötürülməsini məhdudlaşdırmaqdan, ölüm halının qarşısını almaqdan və nəticədə səhiyyə sisteminə düşən yükü azaltmaqdan ibarətdir.

"Koronavirusinfo" saytının məlumatına əsasən hazırkı dövrədək ölkəmizdə koronavirus infeksiyasına qarşı 443888 nəfər peyvəndlənmə prosesində iştirak edib.

Göründüyü kimi, əhalinin təhlükəsizliyi, virusa qarşı kütləvi immunitetin qazanılması üçün ölkəmizdə sürətli vaksinasiya həyata keçirilir.

Lakin yanvar ayının 18-dən etibarən sərt karantin rejimi çərçivəsində bir çox açılımların olması və yumşaldılmanın bəzi insanlar tərəfindən virusun yox olması kimi başa düşülməsi, sosial məsafə, maska taxılması kimi vacib şərtlərə əməl etməməsi səbəbindən koronavirusa yoluxma hallarında yenidən artım baş verib. Belə ki, əgər bir müddət əvvəl yoluxmada ikirəqəmli say qeydə alınırdısa, son günlər bunun üçrəqəmli həddə sıçramasını müşahidə edirik.

Ölkəmizdə koronavirusa ən çox yoluxma faktı Bakı şəhərində müşahidə olunub. Belə ki, ümumi yoluxma hallarının 52,3 faizi paytaxtda qeydə alınıb. Bakı şəhəri üzrə yeni növ koronavirus infeksiyasına yoluxma göstəricilərinə əsasən, paytaxtın rayonları arasında ən yüksək yoluxma göstəricisi 15 faizlə Binəqədi rayonunun payına düşür. Daha sonrakı yerlərdə isə Xətai, Yasamal, Sabunçu, Suraxanı, Nərimanov, Nəsimi, Nizami, Xəzər, Qaradağ, Səbail, Pirallahı rayonları gəlir.

Mütəxəssislər qarşıdakı zamanda, xüsusilə də Novruz bayramı günlərində pandemiya şərtlərinə əməl edilməyəcəyi təqdirdə yoluxma sayının daha yüksək olacağı barədə xəbərdarlıq edib, yoluxma sayının yüksələn tendensiya ilə davam edəcəyi təqdirdə məhdudiyyətlərin qaçılmaz olduğunu bildiriblər.

Bayramda sosial ünsiyyətin artacağı, tətili keçirmək üçün əksər insanların rayonlara üz tutacağı da istisna deyil. Sürətli yayılma xüsusiyyətinə malik təhlükəli koronavirus da elə bu səbəblərdən arta bilər. Buna görə də xalqımızın builki Novruz bayramını həmişəkindən bir az fərqli, pandemiya şərtlərinə əməl edərək keçirməsi arzuolunandır. Qlobal bəlanın hələ bitmədiyini nəzərə alaraq, sosial ünsiyyətimizi maksimum azaltmağa diqqət etməliyik. İmkan daxilində qonaq getməkdən, bayramı qapalı məkanlarda qeyd etməkdən çəkinməliyik.

Hazırkı reallıq budur ki, yalnız tibbi maskalardan düzgün istifadə etməklə, sosial məsafə gözləməklə, gigiyena qaydalarına uyğun davranmaq və könüllü vaksinasiya olunmaqla COVİD-19 təhlükəsindən qoruna və normal həyata qayıda bilərik.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*




# Zəngilanda Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı ilə xalqımızın ədalət savaşının tarixi zəfərlə başa çatması sayəsində dövlətimizin ərazi bütövlüyü təmin edildikdən, ölkə ərazisi, o cümlədən də Ermənistan Respublikası ilə dövlət sərhədi işğaldan azad olunduqdan sonra bu ərazilərdə dövlət başçısının tapşırığına əsasən, zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə kompleks tədbirlər davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, martın 12-də Zəngilan rayonu ərazisində Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb.

Bununla əlaqədar təşkil olunmuş tədbirdə çıxış edən DSX rəisinin müavini general-leytenant İlham Mehdiyev yeni hərbi hissənin fəaliyyətə başlaması münasibətilə Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb.

Çıxışda Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Dəmir yumruq" əməliyyatı nəticəsində ölkəmizin ərazi suverenliyinin bərpa olunduğu, milli və sərhəd təhlükəsizliyimiz üçün 30 ilə yaxın müddətdə əsas təhdid olmuş ölkə ərazisinin 20 faizinin, o cümlədən İranla dövlət sərhədinin 132 kilometr, Ermənistanla dövlət sərhədinin 500 kilometr sahəsinin işğalına son qoyulduğu, Vətən müharibəsinin Azərbaycan Respublikasının Ermənistan üzərində parlaq qələbəsi ilə başa çatdığı vurğulanıb.

Vətən müharibəsi zamanı DSX-nin qarşısında Ali Baş Komandanımız tərəfindən qoyulmuş döyüş tapşırıqlarının uğurlu icrası üçün bütün qüvvə və vasitələrin tam səfərbər edilməsi, Azərbaycan-İran dövlət sərhədinin işğalda olan hissəsinin, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad olunmasında Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının yaxından iştirak etməsi, Azərbaycan sərhədçilərinin rəşadət dastanı yazmaları xüsusi qeyd olunub.

Döyüş əməliyyatlarının ilk günündən başlayaraq Azərbaycan sərhədçiləri Füzuli rayonu ərazisindəki təmas xəttindən Ermənistanla dövlət sərhədinədək böyük bir ərazini azad ediblər. 24 saat ərzində 105 kilometr məsafədə ildırımsürətli hücumla düşmənə dağıdıcı zərbələr endirilərək qədim Xudafərin körpüsündə, Zəngilan rayonunun Ağbənd qəsəbəsində və Zəngilan şəhərində Dövlət bayrağımız sancılıb, qızğın döyüşlər nəticəsində Ermənistanla dövlət sərhədində Bartaz və Şükürataz strateji yüksəklikləri azad ediliblər.

AN-2 təyyarələrinin pilotsuz uçuş aparatları kimi modernləşdirilərək müasir döyüş elementləri sırasına əlavə edilməsi və xüsusi döyüş fəndi kimi tətbiqi, Dövlət Sərhəd Xidmətinin "Harop", "Quzğun" və "Hermes" pilotsuz uçuş aparatlarının peşəkar istifadəsi nəticəsində düşmənin hava hücumundan müdafiə sistemləri, zenit-raket kompleksləri, raket sistemləri, tankları, zirehli döyüş maşınları və digər texnikası, komanda idarəetmə məntəqələri və çoxsaylı canlı qüvvəsi zərərsizləşdirilib, ümumilikdə 290 düşmən hədəfi məhv edilib.

Hazırkı tədbirin keçirildiyi ərazilərdə DSX bölmələri tərəfindən düşmənə endirilən sarsıdıcı zərbələr, o cümlədən çoxsaylı silah-sursatının qənimət kimi götürülməsi, noyabrın 1-də Bartaz və Şükürataz yüksəklikləri uğrunda gedən döyüşlərdə şəxsi heyətimizə hücum edən düşmənin SU-25 qırıcı təyyarəsinin qəhrəman çevikçilərimiz tərəfindən atıcı silahlarla məhv edilməsi və bu kimi digər hərbi uğurlar Vətən müharibəsi tarixinin önəmli hadisələrindən olması vurğulanıb.

Azərbaycan dövlətçiliyinə, Azərbaycan Respublikasının Prezidentinə sadiqliyi ilə seçilən, Ali Baş Komandanımızın rəhbərliyi altında işğalçı düşmən qüvvələrinə qarşı fədakarlıqla döyüşən Azərbaycan sərhədçisinin müqəddəs torpaqlarımızın azad olunmasında iştirakından, bu gün də səngərdə və sərhəddə böyük əzmlə xidmət aparmasından böyük şərəf və qürur duyması bildirilib.

Ermənistanla dövlət sərhədinin əhəmiyyətli hissəsinin mühafizəsinə cavabdeh olan yeni hərbi hissənin fəaliyyətə başlamasının xüsusi əhəmiyyət kəsb etməsi qeyd edilib, hər zaman dövlət maraqlarının keşiyində duran Azərbaycan sərhədçisinin ölkəmizin müqəddəs hüdudlarını qorumaq kimi şərəfli missiyanın öhdəsindən bundan sonra da layiqincə gələcəyinə əminlik ifadə olunub.

Tədbirin sonunda xidməti fəaliyyətində yüksək nəticələr göstərmiş bir qrup hərbi qulluqçu təltif edilib.

Sonra mərasim iştirakçıları hərbi hissənin şəxsi heyətinin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə yerinə yetirilməsi üçün yaradılmış şəraitlə, o cümlədən zəruri avadanlıqlar, mebel, məişət əşyaları, istilik sistemi ilə təmin edilmiş xidməti otaqlar, kazarma və yeməkxana, hamam-camaşırxana kompleksi, anbar, silah və texniki vasitələrinə baxış keçiriblər.

### Azərbaycanda 9825 nəfər COVID-19 əleyhinə peyvənd olunub



**Martın 11-də Azərbaycanda 9825 nəfər yeni koronavirus (COVID-19) infeksiyasına qarşı vaksinasiya olunub.**

AZƏRTAC "koronavirusinfo.az" saytına istinadla xəbər verir ki, yanvarın 18-dən hazırkı dövrədək ölkəmizdə 443 min 888 nəfər COVID-19 əleyhinə peyvəndlənmə prosesində iştirak edib.

Vaksinasiya respublikamızın bütün regionlarında uğurla davam edir.

## Beynəlxalq aləm

### ABŞ erməni terrorçusunun azadlığa buraxılmasından məyus olub

ABŞ-ın Dövlət katibi Entoni Blinken bildirmişdir ki, 1982-ci ildə Türkiyənin Los-Ancelesdəki baş konsulu Kamal Arıkanı qətlə yetirmiş erməni terrorçusu Hampinq Sasunyanın şərti azadlığa buraxılması barədə məhkəmə qərarından məyus olub.

Dövlət katibinin yazılı bəyanatında deyilir: "ABŞ diplomatların təhlükəsizliyini həmişə prioritet məsələ hesab edib və bu cür cinayətlərdə əli olanlar üçün ən sərt cəza verilməsinə tərəfdar çıxıb. Biz şərti azadolmaların əleyhinəyik".

Blinken qətlə yetirilmiş türkiyəli diplomatın ailəsinə və yaxınlarına, habelə Türkiyə Xarici İşlər Nazirliyinə bir daha başsağlığı vermişdir.

Bundan əvvəl Türkiyənin Xarici İşlər Nazirliyi Kamal Arıkanın erməni qatilinin şərti olaraq azadlığa buraxılması barədə Los-Anceles Ali Məhkəməsinin qərarını qətiyyətlə pisləmişdir.

### Türkiyə və Misir diplomatik təmasları bərpa etdilər

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Ankara ilə Qahirə arasında diplomatik səviyyədə təmasların bərpa olunduğunu bildirmişdir. Bu barədə "Anadolu" Agentliyi xəbər verir.

Çavuşoğlu agentliyə müsahibəsində qeyd etmişdir ki, ikitərəfli əlaqələr illər əvvəl kəsilmişdir və ona görə, münasibətləri heç nə baş verməmiş kimi bir gün ərzində yoluna qoymaq mümkün deyil. Bunun üçün ardıcıl görüşlər keçirilməli, yol xəritəsi hazırlayıb irəli getmək lazımdır: "Bizim Misirlə kəşfiyyat idarələrimiz və xarici siyasət idarələri səviyyəsində təmaslarımız var. Biz həm də diplomatik səviyyədə təmaslara başlamışıq".

İki dövlət arasında münasibətlər 2013-cü ildə Misir prezidenti Məhəmməd Mursi devrildikdən sonra kəskin şəkildə pisləşmişdir. Tərəflər səfirlərini geri çağırmışdılar.

### Avropa İttifaqı koronavirusa qarşı dördüncü vaksini bəyəndi



Avropa dərman tənzimləyicisi (EMA) Avropa İttifaqı ölkələrində SARS-CoV-2 koronavirusuna qarşı dördüncü vaksinin istifadəsinə icazə vermişdir. Bu, ABŞ-ın "Johnson&Johnson" korporasiyasının "Janssen-Cilag" müəssisəsinin hazırladığı preparatdır.

Məlumata görə, bu vaksindən uğurla istifadə etmək üçün, rəqiblərdə olduğu kimi, iki doza deyil, bir doza kifayət edir. Hesab olunur ki, bu, avropalıların peyvəndlənməsini sürətləndirməyə kömək edəcək.

Həmçinin bu vaksin Kanada və Bəhreyndə də bəyənilmiş, CAR-da isə sınaqdan keçirilir.

ABŞ-da da bu preparatla peyvəndləməni mümkün hesab edirlər. Lakin ölkənin baş infeksionisti Entoni Fauçi bir doza ilə peyvəndləmənin iki dozadakı kimi səmərəli ola biləcəyindən şübhələnir. Onun dediyinə görə, belə bir preparata keçid insanlarda inamsızlıq yarada bilər və vaksinasiya prosesini ləngidər.

# Ermənistanda ikihakimiyyətlilik formalaşıb

## Baş nazir-prezident qarşıdurması ölkədə yeni siyasi xaosu daha da gücləndirib

*Əvvəli 1-ci səh.*

Qeyri-rəsmi məlumatlara görə, ölkədəki gənclərin 80 faizi işsizdir. Ailəsini dolandırmaq naminə xarici ölkələrə üz tutan ermənilər sayəsində əhali arasında ildən-ilə azalma müşahidə olunur. Ona görə də Ermənistan əhalisi qocalmaqda olan ölkələr sırasında qalır. İnflyasiyanın və korrupsiyanın baş alıb getdiyi, iqtisadiyyatı iflic vəziyyətinə düşən Ermənistanın xarici borcları da durmadan artmaqdadır.

Demoqrafiya ilə bağlı yaranan vəziyyət isə Ermənistanda orduya çağırış zamanı ciddi çətinliklər yaradır. Müharibədəki məğlubiyyətdən sonra açıq şəkildə deyilir ki, Ermənistan ordusu ağır çağırışçı problemi ilə üzləşir və hərbi hissələrin komplektləşdirilməsi mümkünsüz olur. İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra yaranmış vəziyyətin təhlili göstərir ki, Ermənistan ordusu təkcə çağırışçıların sayının sürətlə azalmasına görə problem yaşamır, həm də ölkənin silahlı qüvvələrinin maddi-texniki təchizatında da əvvəlki kimi böyük çətinliklər mövcuddur. Eyni zamanda orduda nizam-intizam pozuntularının, fərariliyin, ölüm hallarının, digər bu kimi mənfi tendensiyaların miqyası durmadan genişlənməkdə davam edir.

Araşdırmalar göstərir ki, son aylarda Ermənistan silahlı qüvvələrində fərarilik, ölüm, zorlama, döyülmə, rüşvət alma, korrupsiya, intihara cəhd etmə, intihar, təcavüz və digər nizamnamədən kənar halların sayı artıb. Bütün bunlar həm də orduda çoxsaylı itkilərin yaşanmasına gətirib çıxarır. Toplanan məlumatlardan aydın olur ki, qeyri-döyüş şəraitində itkilərin yaşanmasına əsas səbəb orduda xəstəliyin tüğyan etməsi, əsgərlərin hərbi hissələrdən kənar şəxsi işlər görməyə vadar edilməsi, intihar, döyülmə və nizamnamədən kənar digər davranışlardır. Özü də bu kimi hallara əsas etibarilə müddətli həqiqi hərbi xidmətə çağırılmış çağırışçılar məruz qalırlar.

Bütün bunlar Ermənistanda hər bir sahədə vəziyyətin ağır və acınacaqlı olduğunu göstərir. Ölkənin bu vəziyyətə düşməsinin əsas səbəbi isə işğal siyasəti yürütməsi olmuşdur.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

### Füzulidə silah-sursat aşkar edilib



İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən silah-sursatların aşkar olunması məqsədilə profilaktiki tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş növbəti belə tədbirlər zamanı erməni hərbi birləşmələrinin ataraq qaçdığı 20 ədəd SPİKE markalı tank əleyhinə idarə olunan raket kompleksi, 2 ədəd SPQ-9 markalı tank əleyhinə raket kompleksi, 11 ədəd müxtəlif markalı piyada əleyhinə raket kompleksi, 2 ədəd qumbaraatan, 78 ədəd qumbaraatan mərmisi, 6 ədəd avtomat sandığı və 330 ədəd pulemyot gülləsi aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə respublikanın rayonları üzrə əhalinin özünüməşğulluğunun təmin olunması ilə bağlı məktəbəqədər təlim xidməti üzrə tələb olunan müxtəlif növ malların satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

